Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**




# Cümhuriyyət varisi kimi İrəvanı, Sovet Azərbaycanının varisi kimi Zəngəzuru geri istəmək haqqımız...

**Çar Rusiyasının Azərbaycan ərazilərini işğal etməsi nəticəsində xanlıqlarımız süquta uğradılar və bundan sonra torpaqlarımızın param-parça edilməsi, qonşu ölkələrə peşkəş edilməsi prosesi başlandı. Çar Rusiyasının mənfur siyasətini davam etdirən Bolşevik Rusiyasının təhriki və təzyiqi ilə Azərbaycanın tarixi torpaqlarında ilk erməni dövləti yaradıldı, bununla da Qafqazda ermənilərin ilk dövləti quruldu.**

Son 200 ildə Azərbaycan ərazilərinin xeyli hissəsini itirdik. Azərbaycanın tarixi torpaqlarının bölünməsi Gülüstan və Türkmənçay müqavilələri ilə məhdudlaşmadı, XX əsrdə də torpaqlarımızın çox əhəmiyyətli hissələrini itirdik.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dönəmində tarixi şəhərimiz İrəvan ərazimizdə dövlət yaradan ermənilərə müvəqqəti olaraq paytaxt kimi verildi, 1920-ci ildə Zəngəzurun qərb hissəsini, 1930-cu ildə isə həmin coğrafi əraziyə daxil olan Mehrini ermənilərə verməyə məcbur edildik.

**Azərbaycanın tarixi ərazilərinin qanunsuz olaraq Ermənistana verilməsi faktının beynəlxalq müstəvidə qabardılması və tanıdılması zərurətə çevrilib**

Ekspertlər deyirlər ki, İrəvanın və Zəngəzurun, o cümlədən də Mehrinin ermənilərə verilməsi faktını mütəmadi olaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq lazımdır ki, dünya erməni dövlətinin Azərbaycan torpaqları üzərində qurulduğunu, ermənilərin bizim torpaqlara sahib olduqdan sonra Azərbaycan türklərini öz ata-baba yurdlarından zorla deportasiya edərək qovduqlarını və soydaşlarımızın yenidən öz evlərinə, kəndlərinə, rayonlarına qayıtmaq haqlarının olduğunu bilsin.

Ekspertlər deyirlər ki, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi İrəvanın, Sovet Azərbaycanının varisi kimi isə Qərbi Zəngəzurun bizə geri qaytarılması məsələsini beynəlxalq səviyyədə qoya bilər və bununla bağlı tələblər irəli sürmək hüququna malikdir. Ekspertlər hesab edirlər ki, hər iki ərazimizin ermənilərə verilməsi o dövrün hakimiyyətlərinə qarşı edilən təzyiqlər nəticəsində baş verib və ərazilərimizin ermənilərə verilməsi heç bir qanun çərçivəsində baş verməyib. İrəvan müvəqqəti verilib, Qərbi Zəngəzurun verilməsi isə tamamilə qanunsuz olub və bu barədə heç bir sənəd qəbul edilməyib, bu ərazi bir bəyanatla Ermənistana verilib. İrəvan da, Qərbi Zəngəzur da (bütövlükdə Zəngəzur) Azərbaycanın ərazisi kimi, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həm Paris sülh konfransı, həm də Antanta ölkələri tərəfindən tanınıb.

Azərbaycanın tarixi ərazilərinin qanunsuz olaraq Ermənistana verilməsi faktının beynəlxalq müstəvidə qabardılması və tanıdılması zərurətə çevrilib. Bu, ən azından, soydaşlarımızın yenidən öz dədə-baba yurdlarına qaytarılması baxımından çox əhəmiyyətlidir.

**"Hər iki məsələni beynəlxalq müstəviyə çıxarmaq mümkündür"**

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, siyasi şərhçi Faiq Ələkbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həm İrəvan, həm də Qərbi Zəngəzur məsələsinin beynəlxalq müstəvidə gündəmə gətirilməsi Azərbaycan üçün çox önəmlidir. "Hər iki məsələ bizim üçün çox əhəmiyyətlidir. Bilirsiniz ki, Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk vaxtlarda İrəvanı ermənilərə güzəştə getməyə məcbur edilmişdi, 1920-ci ildə isə Sovet Rusiyasının təzyiqi altında Qərbi Zəngəzur Ermənistana verilib. Əslində, hər iki faktın baş verməsi, Cümhuriyyətin Milli Şurasının nə üçün belə bir addım atdığının səbəbləri məlumdur. Çünki dövlət quruculuğu yolunda o dönəmdə bir çox problem vardı və Qərb dövlətlərinin təzyiqi altında İrəvanı Ermənistana verməyə məcbur oldu. Sovetlər dövründə isə Sovet Rusiyasının təzyiqi altında məcburən Qərbi Zəngəzurun güzəştə gedildiyi sirr deyil. Hər iki məsələni beynəlxalq müstəviyə çıxarmaq mümkündür. Biz məsələnin daha çox bu tərəfini qabartmalıyıq. Yəni, faktiki olaraq, indiki Ermənistanın Azərbaycan torpaqları üzərində yaradıldığını çatdırmalıyıq. Eyni zamanda da İrəvanın və onun ətrafının Ermənistana müvəqqəti paytaxt kimi verilməsini təsdiq edən Milli Şuranın sənədlərinin də, Qərbi Zəngəzurun və ətrafının verilməsinə dair bəyanatın da, sənədin də əlimizdə olması yaxşı haldır. Bu mənada kı, biz o sənədləri beynəlxalq aləmə təqdim edə bilərik. Biz bu sənədləri beynəlxalq aləmə təqdim etməklə İrəvanın və onun ətrafının, həmçinin də Qərbi Zəngəzurun Azərbaycana qaytarılması tələbini qoya bilərik. Çünki əlimizdə sənəd var. Yəni, faktiki olaraq, bu, hüquqi anlamda Azərbaycanın xeyrinədir. Ona görə də həm Paris sülh konfransı, həm də Millətlər Cəmiyyəti, eləcə də digər təşkilatların istər İrəvan, istərsə də Qərbi Zəngəzur məsələsi haqda xəbərləri vardı və onlar da müəyyən anlamda bu torpaqları Azərbaycanın ərazi bütövlüyü çərçivəsində qəbul ediblər. O dövrdə ermənilərə dövlət yaratmaq üçün Azərbaycanın tarixi ərazilərindən İrəvan və onun ətrafı daxil olmaqla, 9 min kvadratkilometr verilib. Bundan kifayətlənməyən ermənilər daha böyük ərazi iddialarına düşüblər".

**"Bizim əsas məqsədimiz bu sənədlərin üzərindən iş aparmaqdır"**

F.Ələkbərli qeyd etdi ki, İrəvandan və onun ətrafından sonra istər Qərbi Zəngəzurun, istər Göyçənin, istərsə də digər ərazilərimizin hesabına Ermənistanın öz ərazisini böyütməsini biz, birmənalı şəkildə, beynəlxalq hüquq çərçivəsində qaldıra bilərik: "Bu başqa məsələdir ki, bunu Azərbaycan tərəfi dövlət səviyyəsində, beynəlxalq müstəvidə qaldırarkən hansı təpkilərlə qarşılaşacaq, hansı ölkələrin təzyiqi ilə üz-üzə qalacaq, hansı dövlətlər bizim ədalətli tələbimizə dəstək verəcək, haqlı tələbimizi müdafiə edəcək, hansılar dəstək verməyəcək. Bütün bunlar sonrakı mərhələlərlə bağlı olan məsələdir. Bilirik ki, Azərbaycan 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatına (BMT) 86,6 min kvadratkilometr ərazi ilə daxil olub. Amma bu o demək deyil ki, biz tarixi ərazilərimizdən birdəfəlik imtina etməliyik. Tam əksinə, bu məsələləri daim gündəmdə saxlamalıyıq, beynəlxalq hüquq müstəvisinə çıxarmalı, beynəlxalq məhkəmələrə daşımalıyıq. Mənə elə gəlir, Ermənistan və onun havadarları istəsələr də, istəməsələr də, ancaq bir gerçəklik var ki, İrəvan məsələsində də, Qərbi Zəngəzur məsələsində də məhz əlimizdə sənədlər var. Baxın, bu sənədlər bizim üçün vacibdir, biz məsələni daha çox bu detallar üzərində qurmalıyıq. Mənə elə gəlir ki, nə Xalq Cümhuriyyətini və onun rəhbərliyini, nə də Sovet Azərbaycanı və onun rəhbərliyini bu məsələlərdə ittiham etməkdənsə, həmin dövrün şərtləri altında onların nədən bu addımı atdıqlarını, xüsusən də Ermənistanın nə cür yaradıldığı və böyüdüldüyü məsələsini ortaya çıxarmalıyıq. Yəni bizim əsas məqsədimiz bu sənədlərin üzərindən iş aparmaqdır. Hesab edirəm ki, hər iki proseslə bağlı sənədlərlə biz istəyimizə nail ola bilərik. Hər iki ərazinin Ermənistana verilməsi ilə bağlı qəbul edilən sənədlər, iclasların protokolları açıq göstərir ki, bu məsələlərlə bağlı həm Azərbaycan Xalq Cümhuriyyətinə, həm də Azərbaycan Sovet Sosialist Respublikasının rəhbərliyinə çox ciddi təzyiqlər olub. Qərb dövlətləri və Sovet Rusiyası da bu işin əsas hərəkətverici qüvvəsi olublar. Bu gün həmin o Qərb dövlətləri də var, Sovet Rusiyasının varisi kimi Rusiya Federasiyası da mövcuddur. Ola bilsin, bu məsələ onların ziyanlarına olduğu üçün İrəvanın və Qərbi Zəngəzurun hansı şəkildə, necə qanunsuz olaraq Ermənistana verilməsi məsələsini qabartmaq istəmirlər. Amma, bütün hallarda, gerçəkliklər dəyişmir, fakt faktlığında qalır".

**"Biz bu məsələləri beynəlxalq hüquq çərçivəsində ortaya qoymalı və öz tarixi torpaqlarımıza sahib çıxmalıyıq"**

F.Ələkbərlinin sözlərinə görə, bu gerçəkliklər də ondan ibarətdir ki, İrəvan da, Qərbi Zəngəzur da, hər ikisinin ətraf torpaqları da istər qədim dövrdə olsun, istər orta əsrlərdə, istərsə də XX əsrdə olsun, bu ərazilər Azərbaycan torpaqlarıdır. "Yəni Çar Rusiyası ərazilərimizi işğal edənə qədər, söhbət təkcə Quzey Azərbaycandan getmir, ümumiyyətlə, bizim ərazilərimiz, eyni zamanda, Cənubi Qafqazı ehtiva edir. Bura əvvəlcə Səfəvilərin bir parçası idi, daha sonra Əfşarların bir parçası olub. Amma, sadəcə, Qacarlar bu ərazilərə sahib çıxa bilmədi. Ancaq, faktiki olaraq, bu torpaqların Səfəvilərin və Əfşarların tərkibində olması hər kəs tərəfindən bilinən və qəbul edilən bir faktdır. Bu anlamda biz həm tarixi faktlardan, həm də hər iki sənəddən çox faydalı, səmərəli şəkildə istifadə edərək, bu məsələlərdə beynəlxalq səviyyədə israrlı olmalıyıq. Biz o torpaqların Azərbaycan torpaqları olduğunu faktlarla dünyaya təqdim etməli və o torpaqların yenidən Azərbaycanın bir parçası olması uğrunda mübarizə aparmalıyıq".

F.Ələkbərli deyir ki, əslində, Azərbaycan 1992-ci ildə BMT-yə üzv olarkən 86,6 min kvadratkilometrdən deyil, Azərbaycan Xalq Cümhuriyyətinin 114 kvadratkilometrlik ərazisindən çıxış etməli, İrəvan və Qərbi Zəngəzur məsələsini də o zaman qaldırmalı idi. "Amma yenə də gec deyil. Biz bu məsələləri beynəlxalq hüquq çərçivəsində ortaya qoymalı və öz tarixi torpaqlarımıza sahib çıxmalıyıq" - deyə F.Ələkbərli vurğuladı.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**